# Tələbələrin professional vərdişlərinin fəallaşdırılması (Elmira Nəzirovanin seçilmiş əsərlərin əsasında)

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın*
*baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** s.ü.f.d., dos. K.R. Sədirxanova,
s.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözlər:** musiqi, fortepiano, tələbə, konsert, etüd, prelüd, rəqs, repertuar, mahnı
**Ключевые слова:** музыка, фортепиано, студент, концерт, учеба, прелюдия, танец, репертуар, песня
**Key words:** music, piano, student, concert, study, prelude, dance, repertoire, song

Azərbaycan fortepiano musiqisinin parlaq səhifəsini E. Nəzirova əhatə edib. O, müxtəlif janrlara müraciət edib: simli kvartet, skripka və violençel üçün sonatalar, dramatik səhnələr üçün musiqi və sairə. Ancaq onun yaradıçılıq diqqətinin mərkəzində fortepiano əsərləri durur. Onlar bəstəkarla ifaçılıq sənətinin spesifik xüsusiyyətlərinin dərin biliyi ilə yazılıb, çünki o, özü gözəl pianist idi. Eyni zamanda, Nəzirovanın yaradıcılığının janr və stilistik yönəlməsi onun təbiətinin pedaqoji mahiyyəti ilə müəyyən olunur: onun adı ilə Azərbaycan musiqisində fortepiano üçün pedaqoji repertuarın yaranması bağlıdır. Onun prelüd və etüdləri milli musiqidə bu janrın ilk nümunələridir.

Fortepianonun ifadəli imkanları Nəzirovanın etüdlərində müxtəlifcəsinə açılır. Bu yalnız alətin orkestr traktovkasından yox, həmçinin spesifik fortepiano rənglərindən istifadə edilməsindən əmələ gəlir. Etüdlər öz obraz mənalarına görə müxtəlifdirlər: birinci etüd-lirik, poetikdir, ikinci isə dramatik səhifəni açır, axırıncı iki etüd proqramlıq elementi daşıyır – dinləyicilərin qarşısında gah dəfn mərasimi, gah da xalq şənliyinin təəssüratı yaranır.

Birinci etüddə ahəngdar, xalq musiqisinə yaxın olan, fikirli, hətta bir az təmkinli melodiya tədricən daxili həyəcan hissi ilə nüfuz edilir və bu kəskin, gərgin səslənən kulminasiyaya gətirib çatdırır, bundan sonra isə yenidən əvvəlki əhval-ruhiyyə bərpa olunur.

İkinci etüdün musiqisi əvvəlcə sakit xarakterdədir, sonralar isə öz inkişafına görə onu coşmuş təbii hadisəsinə oxşatmaq olar. İfadənin gözəlliyi ondan irəli gəlir ki, melodiya onu müşayiət edən fon ilə ayrılmaz sürətdə birləşir. Burada böyük ifadəli rol pedala məxsusdur. Aparıcı səsi göstərərək və onu müşayiət edən səsin üstünü pərdələyərək, pedal həcmi səs perspektivi yaradır və hər iki əlin arasında səs materialını bölüşdürərək, onların partiyasının ayrılmazlığına səbəb olur.

Dediyimiz kimi, üçüncü etüdün janr əsasını dəfn mərasimi təşkil edir. Bu pyesin bədii obrazının açılmasında böyük rol ostinato melodik şəklinə məxsusdur və bu şəkil bas reqistrində boğuq və tutqun oktavalarla ifadə olunur. Həyəcanlı, poetik obraz orta hissədə yaranır. Onun bütün uzunluğunda tez, müntəzəm hərəkətlə fasiləsiz melodik axını saxlanılır. Bizim qulağımız hər zaman zərif səslər eşidir və bu səslərin arasında danışıq intonasiyaları da səslənir. Və nəhayət, axırıncı, dördüncü etüd mahnı, rəqs xüsusiyyəti daşıyır. Yumşaq lirizm və melodiyanın əhəngliyi bu etüdu xalq mahnısına yaxınlaşdırır və ritmik fiqurun təkrarlığı onu rəqslə bağlayır.




E. Nəzirovanın dörd etüdü birlikdə birinci hissəsi yavaş olan dördhissəli sonataya bənzəyir. Birinci etüd - yavaş girişdir, ikinci - dramatik alleqro, üçüncü - sonat-silsiləli əsərlərdə tez-tez müşaiyət olunan matəm marşı və dördüncü - canlanma janr finalıdır.

Xüsusi diqqətə Nəzirovanın maraqlı pyesləri layiqdirlər, bunlar Azərbaycan xalq melodiyalarının işlənmələridir. «Pyeslər» - in birinci dəftərinə səkkiz yüngül, ikincisinə isə - dörd daha çətin işləmələr daxildirlər. Bəstəkar əsl xalq musiqisinin nümunələri əsasında pyeslər yaradır və bu pyeslər şagirdlərdə Azərbaycan folkloruna qarşı məhəbbət tərbiyə edir. Həmçinin, Nəzirovanın prelüdləri haqda danışmaq lazımdır. Bu prelüdləri o, gənc yaşında yazıb və bu əsərlərin musiqisi gənclik çoşğunluğunu və səmimiliyini əks etdirir. Burada bəstəkar dolğun mənalılığa sadə, yalnız müxtəlif vasitələrlə nail olur. Prelüdlərin musiqisinə ifadəlik və rəngli - koloristik cəhətlərinin birliyi aiddir.

Dördüncü prelüddən başqa, bütün prelüdlərin etüd janrı ilə oxşarlıqı var və bu oxşarlıq, əsasən, texniki məsələlərin olmağı və xırda barmaq texnikası ilə bağlıdır. Təbiət təsvirinin lirikası ilə birinci prelüdün əhval - ruhiyyəsi nüfuz edilib. Bu isə sakit, geniş "violençel" melodiyasının sahəsində yaranır. Gələn iki prelüdlər bu prelüdə ziddirlər - onlar oynaq xarakterdə yazılıblar. İkinci prelüd Azərbaycan musiqisində geniş yayılmış 6/8 razmerində yazılıb. Ücüncü prelüd isə ikincidən fərqli olaraq, daha da cəld və enerjilidir. Bu iki prelüd öz inkişafı sahəsində dinamik yüksəklik dərəcəsini artırırlar və daxili gərginliyinə və dolğunluğuna nail olurlar.

Dinləyiçilərin rəğbətini böyük dördüncü, mi bemol minor prelüdü qazanıb. O, xalq-mahnı intonasiyaları ilə zəngindir. Bu, yavaş tempdə olan yeganə prelüddür. Onun nəğməli, qəmli-hekayəli mövzüsunu qeyri-adi ifa lakonizmi təşkil edir. Əvvəlki prelüdlər kimi, burada da kənar hissələrdən fərqli olan orta hissə mövcuddur. Zəngin akkord faktrurası, fortepianonun bütün diapazonunun sərbəst istifadə edilməsi beşinci prelüdü o birilərdən fərqləndirir; bu prelüd silsiləsinin təntənəli, təmtəraqlı finalı kimi çıxış edir.




Müəllifin beş prelüdünün beşi də ümumi əhval - ruhiyyənin və mənalı vasitələrin müəyyən sahəsinin birliyi ilə bir-birinə bağlanır. Bu əsərlərə müraciət şagirdlərin yaxşı musiqi zövqünün formalaşmasına səbəb olur və gözəllik dünyasına toxunmağa vasitəçilik göstərir.

E.Nəzirovanın və F.Əmirovun birlikdə yaratdığı ərəb mövzüsunda yazılmış fortepiano konsertini nəzərdən keçirmək lazımdır. Burada F. Əmirovun Azərbaycan intsrumental konsertinin inkişafında böyük rolunu vurğulamaq lazımdır. Məhz onun Nəzirova ilə birlikdə yaratdığı konsert Azərbaycanda ilk fortepiano və xalq çalğı alətləri üçün yazılmış konsert idi. Bu konsert belə uyğunlaşmanın ilk nümunəsi idi. Konsert janrı haqqında danışaraq demək lazımdır ki, məhz ərəb mövzusunda yazılmış konsert bu günə qədər Azərbaycan musiqisinin bu sahədə zirvəsini təşkil edir.

Oxucuya maraqlı olan bir faktı çatdırmaq istəyirəm - F.Əmirovun və E.Nəzirovanın müştərək müəllifliyinin əsası xeyli qabaq qoyulmuşdur, hələ onların yenə də folklor əsasında yaranmış iki fortepiano üçün alban mövzusuna yazılmış süit zamanı. Bu əsər haqqında bir neçə söz demək istəyirəm. Süitin tematik materialını əsl alban xalq mahnı və rəqs melodiyaları təşkil edir. Alban musiqisinin milli üslubuna daxil olmasını, onun melodikliyinin gözəlliyini və ritm dəyişkənliyini duymasını, bəstəkarlar mövzuların inkişaf etdirməsində aydın göstəriblər. Müəlliflərin alban musiqisinin spesifik cəhətlərini belə təbii sürətdə işlənmələri ondan irəli gəlir ki, alban və Azərbayçan folklorunun bir neçə elementləri bir-birinə uyğundurlar. Belə ki süitin birinci və dördüncü hissələrindəki mövzunun lad əsası Azərbaycan çargah ladına yaxındır.

Alban xalq musiqisinin əlamətlərindən biri - ladların müxtəlif növünün istifadəsidir və onların bir neçəsinin Azərbayçan xalq musiqisilə oxşar cizgiləri var. Əlbəttə, müəlliflər süitin mövzularına alban xalq musiqisinin elə nümunələrini seçiblər ki, onlar öz üslub və quruluşu ilə Azərbayçan musiqisinə çox yaxındırlar. Konsert haqqında danışaraq D.Danilovun sözlərini nümunə gətirmək istəyirəm: “F.Əmirovun E.Nəzirova ilə birlikdə yazdığı konsertdə ərəb musiqisinin mövzuları və onların ayrı-ayrı intonasiyaları istifadə olunub, ançaq bunlar Azərbay-

can musiqisinin üslubunda yaradıçılıq cəhətdən işlənməyə məruz qalıb. Ona görə də bu konsertə ərəb mövzusuna yazılmış Azərbayçan əsəri kimi baxmaq olar".

Müəlliflər hamı tərəfindən qəbul edilən instrumental konsertin kompozisiyasından kənara çıxmayıblar, yəni daxili kontrastı olan birinci, yavaş templi ikinci hissəsi və cəld finalı olan bir konsert yaradıblar. Bizim məqsədimizə əsərin dəqiq təhlili daxil deyil, ona görə konsertin bütün hissələrinin dəqiq baxılmasına istəyənlərə D. Məmmədbəyovun "F.Əmirovun və E. Nəzirovanın ərəb mövzularına yazılmış konsert" işinə müraciət etməyi məlsəhət görürük.

Fikrimizcə, tələbələrin bu əsərlə tanışlığı, onlara müxtəlif xalqların mədəniyyətlərinin arasında olan əlaqəni görməyə kömək edir. Verilmiş halda bu, alban, ərəb və Azərbayçan xalq musiqilərinin arasında olan əlaqədir.

**Məqalənin aktuallığı.** Aktuallıq ondan ibarətdir ki, Elmira Nəzirovanın yaradıcılığı tələbələrin fortepiano təhsili prosesində vacib rol oynayır.

**Məqalənin elmi yeniliyi.** E.Nəzirovanın əsərlərinin müasir pianoçularının repertuarına daxil edilməsi onun bu əsərlərinin XX əsr dünya musiqisinin parlaq nümumələridir ki, bu da məqalənin elmi yeniliyini göstərir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Təcrübədə məqalənin məzmununun istifadəsi E.Nəzirovanın fortepiano əsərlərinin düzqün interpretasiyasının öyrənilməsində tələbə və müəllimlərin köməyinə gələ bilər.

## Ədəbiyyat

1. Абасова Э.Г., Касимов К.А. Очерки музыкального искусства Советского Азербайджана. Баку, 1970.

2. Алексеев А.Д. Методика обучения игре на фортепиано. М., 1978.

3. Сеидов Т.А. Азербайджанская Советская фортепианная музыка. Баку, 1980.

**И.А. Ахмедова**

## Активизация профессиональных навыков у студентов (по избранным работам Эльмиры Назировой)

## Резюме

В учебном процессе очень важное место уделяется активизации профессиональных навыков студентов. Для этого необходимо использовать материал, способствующий развитию пианистических умений. В этом плане, творчество Эльмиры Назировой занимает одно из важных мест в азербайджанской фортепианной литературе. В течении разучивания и освоения произведений композитора, студенты получают возможность улучшить свою техническую базу, повышают свой профессиональный исполнительский уровень.

**I.A. Ahmadova**

## Activation of professional skills of students (based on selected works by Elmira Nazirova)

## Summary

In the educational process, a very important place is given to the activation of professional skills of students. To do this, you need to use material that promotes the development of piano skills. In this regard, the work of Elmira Nazirova occupies one of the most important places in Azerbaijani piano literature. In the course of learning and mastering the works of the composer, students have the opportunity to improve their technical base, improve their professional performance level.

**Redaksiyaya daxil olub:** 21.05.2020